**"YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

"YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 15 sentyabr tarixli 1006 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 9, maddə 826; 2006, № 9, maddə 743; 2014, № 9, maddə 1027) 3-cü hissəsi aşağıdakı redaksiyada verilsin: "3. YUNESKO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının aşağıdakı tərkibi müəyyən edilsin:

| **Komissiyanın sədri** | | |
|---|---|---|
| Elmar Məmmədyarov | – | Azərbaycan Respublikasının xarici işlər naziri |
| **Komissiya sədrinin müavinləri** | | |
| Akif Əlizadə | – | Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti |
| Mikayıl Cabbarov | – | Azərbaycan Respublikasının təhsil naziri |
| Əbülfəs Qarayev | – | Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri |
| Əli Abbasov | – | Azərbaycan Respublikasının rabitə və yüksək texnologiyalar naziri |
| **Komissiyanın üzvləri** | | |
| Kamal Abdullayev | – | Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilər Şurasının sədri |
| Novruz Məmmədov | – | Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri |
| Fatma Abdullazadə | – | Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri |
| Elmira Süleymanova | – | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) |
| Hüseynqulu Bağırov | – | Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri |
| Azad Rəhimov | – | Azərbaycan Respublikasının gənclər və idman naziri |
| Hicran Hüseynova | – | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri |
| Aslan Aslanov | – | Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) baş direktoru |
| Urxan Ələkbərov | – | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru |
| Samir Nuriyev | – | Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin rəisi |
| Zərifə Salahova | – | Azərbaycan Kitab Cəmiyyətinin sədri". |

**İlham Əliyev**

**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 10 mart 2015-ci il.**